

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 249 (21.910)

30 dekabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Abşeron rayonunda yenidən qurulan Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun açılışında iştirak edib.

Dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verilib. Qeyd edilib ki, Abşeron rayonunda 21 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun tikinti işləri qısa müddətdə və yüksək səviyyədə həyata keçirilib. Yolun uzunluğu 9 kilometrə yaxındır. Ümumilikdə, 12 metr enində yeni yol yatağı tikilib. Tikintidən sonra yolun hərəkət hissəsi 7-8 metrə qədər genişləndirilib.

Dövlətimizin başçısı Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib.

Sonra xatirə şəkli çəkdirilib.

* * *

Daha sonra Prezident İlham Əliyev "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna baxıb.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2017-ci ilin dekabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 1 dekabr tarixli qərarı ilə "Elektron xidmət növlərinin Siyahısı"nda, 7 dekabr tarixli qərarları ilə "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nda və "Gömrük ödənişlərinin qaytarılması Qaydaları"nda, 11 dekabr tarixli qərarı ilə "Mədəni sərvətlərin idxalı, ixracı və Naxçıvan Muxtar Respublikasından tranzitlə keçirilməsi Qaydası"nda və 15 dekabr tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda və 21 dekabr tarixli qərarı ilə "Elektron xidmət növlərinin Siyahısı"nda dəyişikliklər edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2017-ci il 23 dekabr tarixli qərarları ilə "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsinin Nizamnaməsi" təsdiq edilmiş və "Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydasının təkmilləşdirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli qərarında dəyişikliklər edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli qərarı ilə pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün stimullaşdırıcı tədbirlər və müəllimlərin müsabiqə yolu ilə işə qəbulunun aparılması müəyyən edilmişdir. Müvafiq qərara əsasən daimi yaşayış yeri üzrə ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan gənc mütəxəssislərə həvəsləndirmə tədbirləri şamil olunmur. Gənc mütəxəssislərin bu qərara uyğun göndərişlə işə cəlb olunması üçün müvafiq ümumi təhsil müəssisələrində qanunvericilikdə nəzərdə tutulan minimum dərs yükü olmalıdır.

Bundan əlavə, Nazirlər Kabinetinin 28 dekabr tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda, "Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi halları və Qaydaları"nda və "Qiymətli metallardan hazırlanmış məhsulların, o cümlədən zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması Qaydaları"nda dəyişikliklər edilmiş, habelə 29 dekabr tarixli qərarı ilə "Mənəvi Dəyərlər Fondu"nun Nizamnaməsi" təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının şura iclası keçirilib

***İclasda 2017-ci ilin ötən dövrü ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov hesabat məruzəsi ilə çıxış edib.***

Bildirilib ki, Babək Rayon Təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının 2013-cü ilin iyununda keçirilən V Qurultayı, partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının 2014-cü ilin noyabrında keçirilən V Konfransı və Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il martın 16-da keçirilən iclasında qarşıya qoyulan vəzifələrin ardıcıl icrası istiqamətində qurub, ölkəmizin, doğma diyarımızın və Yeni Azərbaycan Partiyasının ümumi inkişaf tempinə uyğun fəaliyyət göstərib. 2017-ci il üçün iş planında nəzərdə tutulan tədbirlərin vaxtlı-vaxtında və yüksək səviyyədə həyata keçirilməsi, ilk təşkilatlarla işin gücləndirilməsi, siyasi-ideoloji işdə və partiyaya yeni üzvlərin cəlb edilməsi məsələsində keyfiyyət amili təşkilat üçün prioritet təşkil edib.

Qeyd olunub ki, bütövlükdə, il ərzində bütün tarixi və mədəni hadisələr qeyd edilib, iş planına uyğun olaraq 11 İdarə Heyəti, 3 şura, 6 dəfə isə partiya fəallarının ümumi yığıncağı keçirilib. Partiya sıralarına qəbul zamanı keyfiyyətə ciddi nəzarət olunub, qadınların və gənclərin qəbuluna üstünlük verilib. 2017-ci ildə partiya sıralarına 111 nəfər üzvlüyə qəbul olunub. Onlardan 85-i gənc, 53-ü isə qadındır.

Sonra məruzə ətrafında çıxışlar olub. Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Qadınlar Şurasının sədri Turan Məmmədlinin, təşkilatın Gənclər Birliyinin sədri, şura üzvü Elnur Abbasovun və başqalarının çıxışları dinlənilib.

**Muxtar RZAZADƏ**

***Hər bir ölkənin iqtisadi vəziyyətini və potensialını göstərən əsas sahələrdən biri tikinti sektorudur. Əgər bu sektorda canlanma varsa, deməli, həmin ölkə iqtisadi cəhətdən inkişaf edir. Buna çoxsaylı misallar göstərmək olar. Məsələn, bir çoxumuza məlum olduğu kimi, sovet hökumətinin son illərində bütün sahələrdə, eləcə də tikinti sektorunda durğunluq yaranmışdı. Hətta bir çoxlarımızın yadındadır ki, ötən əsrin sonlarına doğru şəhərimizin bəzi yerlərində tikintisi yarımçıq qalmış müxtəlif təyinatlı, o cümlədən yaşayış binaları vardı. Belə obyektlərin sayı az olsa da, iqtisadi vəziyyətin tənəzzülü bu işləri sonadək çatdırmağa imkan vermirdi.***

## Mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər əhalinin yaşayış standartlarının yüksəlişini təmin edib

Eyni zamanda nəzərə alaq ki, müstəqilliyimizin ilk illərində də ölkəmizdə, eləcə də muxtar respublikamızda bu sektorda vəziyyət ürəkaçan deyildi. Bunun başlıca səbəbi iqtisadi böhran üzündən vəsait çatışmazlığı idisə, digər tərəfdən tikinti sektorunda sahibkarlığın formalaşmaması idi. Belə bir vəziyyətdə bu sahəyə xarici investisiyalar da cəlb etmək mümkün deyildi. Çünki siyasi və iqtisadi sabitliyi olmayan ölkəyə əcnəbi investorlar heç zaman vəsait yönəltməyə, təbii olaraq, meyilli olmurlar. Qısacası, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra digər sahələrdəki kimi, tikintidə də yeni canlanmanın şahidi olduq. Ötən dövrdə isə bu sahədə gedən proseslər, sovet dövründən fərqli olaraq, yeni tikinti trendlərinin yaranmasına, müasir tikinti yeniliklərinin tətbiqinə və təbii ki, həm də yeni tikinti mədəniyyətinin formalaşmasına öz təsirini göstərdi. Son illərdə muxtar respublikada təsərrüfat sahələrinin inkişaf etdirilməsi, yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlər, paralel olaraq, inşaat işlərinin həcminin və istiqamətinin genişlənməsinə də imkanlar açıb. Mühüm sosial ağırlığı ilə seçilən belə tədbirlərindən biri əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, yeni yaşayış binalarının tikintisi və ya əsaslı şəkildə yenidən qurulmasıdır.



Vurğulayaq ki, ötən 2016-cı ildə muxtar respublika üzrə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşlarının həcmi 2015-ci ilə nisbətən 5 faiz artaraq 997 milyon manatdan çox olub. İnvestisiya qoyuluşlarının 921 milyon manatından və ya 92 faizindən bilavasitə tikinti-quraşdırma işlərində istifadə olunması əhalinin mənzil şəraitinin yaxşılaşmasına, abadlaşdırma-bərpa işlərinin genişləndirilməsinə və kənd yerlərində infrastrukturun yenilənməsinə şərait yaradıb. Ötən il ərzində 2 ictimai yaşayış binası tikilərək istifadəyə verilib, 9 yaşayış binasında isə yenidənqurma və əsaslı təmir işləri aparılıb. İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-noyabr aylarında isə muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 916 milyon 390 min manat vəsait yönəldilib. Bu payın 845 milyon 790 min manatı və ya 92,3 faizi tikinti-quraşdırma işlərinin payına düşüb.

Cari ildə də yeni yaşayış binalarının istifadəyə verilməsi, mövcud binaların əsaslı şəkildə yenidən qurulması diqqət mərkəzində saxlanılıb. Yeni binalar həm də şəhərimizin simasının daha da gözəlləşməsinə səbəb olub. Məsələn, ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə bu il mayın 10-da Heydər Əliyev prospektində istifadəyə verilən zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan yaşayış binası özünün möhtəşəm görünüşü ilə diqqət çəkir. Bundan əlavə, Naxçıvan şəhərinin mərkəzi küçələrindən olan Atatürk küçəsində inşa olunmuş yeni yaşayış binası da öz əzəməti ilə göz oxşayır. 9 mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində bu ilin oktyabr ayında "Koton" Moda və satış firmasının yeni mağazası fəaliyyətə başlayıb. 54 mənzilli bu yaşayış binası müasir və milli arxitektura elementləri ilə diqqət çəkir.

Naxçıvan şəhərinin "İstiqlal" küçəsindəki 79 nömrəli yaşayış binası da yenidənqurma işlərindən sonra bu ilin sentyabr ayında sakinlərinə sevinc bəxş edib. İndiyədək istifadəyə verilmiş digər yaşayış binalarında olduğu kimi, bu 5 mərtəbəli, 45 mənzilli yaşayış binasında da yenidənqurma işləri zamanı mühəndis-kommunikasiya sistemləri yenilənib, binanın fasadı, dam örtüyü, qapı və pəncərələri dəyişdirilib, dəhlizlər və zirzəmisi təmir olunub. Bundan əlavə, binanın zirzəmisində xidmət sahələri üçün yerlər ayrılıb.

Ümumiyyətlə, Naxçıvan şəhərinin mərkəzi küçələrindən sayılan "İstiqlal" küçəsi çoxsaylı yaşayış binalarının mövcudluğu ilə diqqət çəkir. Son illərdə bu yaşayış binalarının xeyli hissəsi əsaslı şəkildə yenidən qurulub, binaların sahəsi artırılıb, özülü möhkəmləndirilib, ətrafı abadlaşdırılıb. Cari ildə isə buradakı 111 və 113 nömrəli binalar yenidən qurulub. Yaxınlıqdakı Zəroş Həmzəyeva küçəsində isə 121 nömrəli yaşayış binasında son tamamlama işləri görülür.

Bundan əlavə, Naxçıvan şəhərinin "Əlincə" məhəlləsindəki 9 mərtəbəli, Şərur şəhərinin Heydər Əliyev prospektindəki 5 mərtəbəli yaşayış binalarının yenidən qurulması, Sədərək rayonunun Heydərabad, Kəngərli rayonunun Qıvraq qəsəbələrində 7 mərtəbəli 48 mənzilli yaşayış binalarının tikintisi davam etdirilir.

Təbii ki, il ərzində quruculuq-abadlıq tədbirləri aparılmış yaşayış binalarının hər biri haqqında ətraflı bəhs etmək mümkünsüzdür. Ancaq ümumi olaraq demək olar ki, muxtar respublikada yaşayış standartlarının davamlı yüksəlişi, mənzil-kommunal sektorunda genişmiqyaslı yenidənqurma tədbirləri, infrastrukturun tamamilə yenilənməsi, bir sözlə, rahat yaşayış üçün əsas kriteriyaların tam təmin olunması muxtar respublikanın sosial-demoqrafik inkişafına da öz təsirini göstərib. Buna görədir ki, muxtar respublikada əhali artımında ildən-ilə yüksəliş əldə olunmaqla yanaşı, bu qədim diyarı özünə həmişəlik yaşayış məskəni kimi seçənlər də az deyil.

**✍ Səbuhi HƏSƏNOV**

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günüdür*

# Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi daim güclənir

***Hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması ümummilli liderimiz Heydər Əliyevin xalqımızın tarixi taleyi ilə bağlı qəbul etdiyi mühüm qərarlardan biridir.***

1990-1993-cü illərdə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında “31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərar qəbul olunmuşdur. Həmin sessiyadakı çıxışında ümummilli liderimiz qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq demişdir: ***“Dünya Azərbaycan Türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür”.***

Qərara əsasən 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada qeyd edilmişdir. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynamışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra milli birliyi təmin etməklə yanaşı, Azərbaycan diasporunun və lobbisinin formalaşdırılması istiqamətində də ardıcıl, məqsədyönlü siyasət yürütmüşdür. Dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlıların mütəşəkkil diaspor halında formalaşması və güclənməsi, onların məskunlaşdığı ölkələrdə siyasi, iqtisadi fəaliyyətini genişləndirməsi bu siyasətin prioritet istiqamətlərini təşkil etmişdir. Dünya azərbaycanlılarının müstəqil dövlət, vahid məqsəd ətrafında sıx birləşdirilməsi zərurətindən danışan ulu öndər deyirdi: ***“Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır... Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir”.***

Ümummilli liderin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-u və 10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi isə diaspor quruculuğu sahəsində atılmış ilk qətiyyətli addım idi. Ulu öndərimiz qurultayda Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi və qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsinin vacibliyini ön plana çəkmişdi. Qurultayda diaspor və lobbiçilik fəaliyyəti ilə bağlı bir sıra mühüm məsələlər müzakirə edilmiş, qərarlar, fəaliyyət proqramları təsdiqlənmişdir. Qurultaydan sonra dünya şöhrətli siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə diaspor sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi üçün yeni komitə yaradılmış, “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Qanun qəbul edilmişdir. Bu isə dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da sürətləndirmiş, xaricdə fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən idarə olunmasına və soydaşlarımızın Vətənlə əlaqələrinin möhkəmlənməsinə səbəb olmuşdur.

Dünya azərbaycanlılarının müstəqil dövlət, vahid məqsəd ətrafında sıx birləşdirilməsi ideyasının müəllifi – Türk dünyasının böyük lideri Heydər Əliyev xarici ölkələrə etdiyi çoxsaylı səfərlərdə diasporumuzun nümayəndələri ilə görüşlər keçirmiş, milli həmrəylik, milli birlik naminə birləşmənin labüdlüyünə diqqəti çəkərək demişdir: ***“Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Hamımız bu torpaqda yaşayırıq – bu, Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir. Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba ocağıdır. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi Vətəni vardır”.***

Dahi şəxsiyyətin dünya azərbaycanlıları tərəfindən böyük nüfuz və etimada malik şəksiz milli lider kimi qəbul edilməsi soydaşlarımızın Azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməsində əsas amil olmuşdur. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycançılıq anlayışının milli ideologiyaya çevrilməsi, dünya azərbaycanlılarının həmrəyliyi, onların vahid təşkilatlar çərçivəsində cəmləşməsi və təşkilatlanaraq milli diaspora çevrilməsi ulu öndərin misilsiz xidmətlərinin nəticəsidir.

***“Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – Azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin bu sahədə həyata keçirdiyi tədbirlər, soydaşlarımızın vahid ideologiya ətrafında birləşməsi yolunda gördüyü işlər, qəbul etdiyi tarixi qərarlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarda milli ruhun yüksəldilməsinə, onların doğma Vətənə bağlılıqlarının artırılmasına səbəb olmuşdur.

Ölkə Prezidentinin 2006-cı il 8 fevral tarixli Sərəncamına əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktlarının faktlarla dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri, xüsusilə önə çəkilmişdir.

Ölkə rəhbəri yalnız güclü diaspora malik xalqların xarici siyasətdə mühüm uğurlar qazandığını, dünya miqyasında maraq və mənafelərini hər zaman layiqincə qoruduğunu, ümummilli problemlərinin həllinə nail olduğunu, öz milli-mənəvi dəyərlərini, tarixi həqiqətlərini lazımi səviyyədə təbliğ edə bildiyini dəfələrlə vurğulayaraq bildirmişdir ki: ***“Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində milli birlik və həmrəylik ideyaları daha dolğun məzmun kəsb edərək, real fəaliyyət sahəsi kimi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir. “Güclü dövlət – güclü diaspor” prinsipini rəhbər tutan həmin siyasətin əsas qayəsi xarici ölkələrdə yaşayan soydaşlarımızın tarixi vətənlə bağlılığını möhkəmləndirmək, mütəşəkkilliyini artırmaq, diaspor qurumlarının imkanlarından həmvətənlərimizin hüquqlarının və milli dövlət maraqlarının qorunmasında daha səmərəli istifadə etməkdən ibarətdir”.***

2008-ci il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmiş, 2011-ci il iyulun 5-də Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının III Qurultayı dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birlik və həmrəyliyinin təntənəsinə çevrilmişdir. 2016-cı il iyunun 3-də Bakıda öz işinə başlayan Dünya Azərbaycanlılarının IV Qurultayında isə bu istiqamətdə görülmüş işlər, qəbul edilmiş qərarlar, tədbirlər geniş müzakirə olunmuşdur.

Bu gün Azərbaycanın dünyanın lider dövlətlərindən birinə çevrilməsi, regionda əsas söz və nüfuz sahibi olması xaricdəki həmvətənlərimizi vahid Vətən və müstəqil Azərbaycan dövləti naminə daha səylə təşkilatlanmağa sövq edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbrikində deyildiyi kimi: ***“Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə Azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər”.***

Bu gün dünyanın dörd bir qitəsində yaşayan əlli milyondan artıq soydaşımız nüfuzlu iqtisadi və siyasi gücə çevrilmiş Azərbaycan dövləti ətrafında sıx birləşib. Dünya azərbaycanlılarının müstəqil və qüdrətli Azərbaycan Respublikası ətrafındakı mənəvi birliyi, milli həmrəyliyi sarsılmaz və əbədidir.

✍ **Mehriban SULTAN**

*30 dekabr Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranması günüdür*

# Muxtar respublikada fövqəladə hallara hazırlıq diqqət mərkəzindədir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.***

Nazirliyin maddi-texniki bazası ötən dövrdə əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, qarşıya qoyulmuş vəzifələri peşəkarlıqla yerinə yetirən şəxsi heyət formalaşmışdır. Bu gün muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində və tikintidə insanların təhlükəsizliyinin, eləcə də sənayedə texniki təhlükəsizliyin təmin olunması sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Nazirliyin əməkdaşları fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq nümayiş etdirirlər.

Muxtar respublikada aparılan quruculuq işləri Fövqəladə Hallar Nazirliyini də əhatə etmiş, nazirliyin müvafiq qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə nazirliyin inzibati binasının açılışı olmuşdur. Bundan başqa, 2007-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası və texniki qarajları yenidən qurularaq istifadəyə verilmiş, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələrinin, 2013-cü ildə Şərur və Babək rayon şöbələrinin, 2014-cü ildə isə Sədərək rayon şöbəsinin inzibati binaları və texniki qarajları tikilərək istifadəyə verilmişdir. Ötən dövrdə mülki müdafiə alayının maddi-tədris bazasının təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, bu məqsədlə təlim mərkəzi istifadəyə verilmişdir. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmış, ölkə Prezidentinin iştirakı ilə Naxçıvan şəhərində zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Həmçinin bu günə kimi mülki müdafiə alayına, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarına müxtəlif təyinatlı yanğınsöndürmə avtomobilləri və nəqliyyat vasitələri alınmışdır. 2010-cu ildə isə xidmətə vertolyot verilmiş, mülki müdafiə alayında və Batabat qoruğu ərazisində uçuş-enmə meydançaları hazırlanmışdır.

Nazirliyin mərkəzi aparatının və struktur qurumlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi və peşəkarlığının artırılması istiqamətində də mühüm tədbirlər görülmüşdür. Əməkdaşlar Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Bakı Yanğın-Texniki Kollecinə, Ukrayna Respublikasının Xarkov şəhərindəki və Belarusun Minsk şəhərindəki akademiyalara təhsil almağa göndərilmişlər. Keçirilən təlim və məşğələlər də peşə vərdişlərinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Ötən dövrdə şəxsi heyətin iştirakı ilə komanda-qərargah, taktiki-xüsusi təlimlər, yanğın təhlükəsizliyi şöbələrinin hər birində xidmətin təşkili üzrə gecə və gündüz məşğələləri keçirilmişdir.

Bu gün Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bundan başqa, əhalinin ehtimal olunan radioaktiv, kimyəvi zəhərlənmələrdən mühafizəsinin təşkilində operativliyi təmin etmək məqsədilə müvafiq tədbirlər görülmüş, bu sahədə maddi-texniki baza gücləndirilmişdir. Həmçinin muxtar respublikada taxılın saxlanma şəraiti, yanğın və texniki təhlükəsizlik məsələləri mütəmadi olaraq yoxlanılır. Ötən dövrdə əhalinin və işçilərin fövqəladə hallara hazırlığının təmin edilməsi məqsədilə mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarə orqanlarında və təsərrüfat obyektlərində mülki müdafiə təlimləri, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında müxtəlif səpkili konfrans və digər maarifləndirici tədbirlər keçirilmiş, kütləvi informasiya vasitələrində məlumatlar təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası” hazırlanaraq nəşr olunmuşdur. 6 bölmədən ibarət atlasda təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, qaz kəmərlərinin, kommunikasiya xətlərinin, digər infrastruktur obyektlərinin mühafizəsi, təbii fəlakətlərin, texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsi müəyyən edilmişdir. Eyni zamanda atlasda muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı göstəricilər, infrastruktur obyektləri barədə məlumatlar, müxtəlif miqyaslı inzibati və coğrafi xəritələr verilmişdir. Bir sözlə, “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası” fövqəladə hallar orqanlarının əməkdaşlarının işinə kömək edən və mühüm elmi əhəmiyyətə malik olan sənəddir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir”.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti bundan sonra da fəaliyyətini qarşıya qoyulan tələblər əsasında quracaq, əhalinin və ərazilərin təhlükəsizliyi naminə təxirəsalınmaz tədbirləri uğurla yerinə yetirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Əlahiddə Ümumqoşun Ordu Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb

***Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordu quruculuğu sahəsində görülən işlər Naxçıvan Muxtar Respublikasında da hərbi hissələrin maddi-texniki təminatının möhkəmləndirilməsinə və şəxsi heyətin döyüş hazırlığının artırılmasına səbəb olmuşdur.***



Dövlət başçısının “Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaratmışdır. Ölkə Prezidenti bu barədə demişdir: ***“Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***

Bu gün Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. 2017-ci ildə də bu sahədə görülən işlər davam etdirilmiş, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin iştirakı ilə Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan şəhərində yerləşən hərbi hissəsində 900 yerlik əsgər yataqxanası və Əsgəri-Məişət Kompleksi istifadəyə verilmişdir.

2017-ci tədris ilində birləşmə və hərbi hissələr hər bir tapşırığı peşəkarlıqla yerinə yetirmişlər. Belə ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 12-15-də Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimləri keçirilmişdir. Təlimə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri ilə yanaşı, Əlahiddə Sərhəd Diviziyasının, Əlahiddə Əməliyyat Briqadasının və Mülki Müdafiə Alayının bölmələrinin, ümumilikdə, 5 minə yaxın şəxsi heyəti, 250-dən artıq zirehli və 500-ə yaxın avtomobil texnikası cəlb edilmiş, qarşıya qoyulmuş tapşırıqlar uğurla yerinə yetirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov birgə əməliyyat taktiki təlimi izləmiş, təlimdə iştirak edən şəxsi heyətə təşəkkürünü bildirərək demişdir: ***“Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir”.***



Oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olunmuş, hərbi parad keçirilmişdir. Paradda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun, birləşmə və hissələrinin 2 minə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən 10-dan artıq döyüş vertolyotu və təyyarəsi iştirak etmişdir.

Həmin gün Əlahiddə Ümumqoşun Ordunun yeni Təlim-Tədris Mərkəzi də istifadəyə verilmişdir. 3 mərtəbədən ibarət olan binada simulyasiya mərkəzi, trenajor zalı, zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, mətbəə, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı yerləşir. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılmış, kompüterlər quraşdırılmış, əyani vəsaitlər və məlumat stendləri qoyulmuşdur.



Naxçıvan Muxtar Respublikasında dövlət-ordu-xalq birliyinin möhkəm təməli yaradılıb. Dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin döyüş ruhu günbəgün artır, sərhəd yaşayış məntəqələrimiz etibarlı müdafiə olunur. Bu il dekabrın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Babək rayonunun Gərməçataq kəndindəki hərbi hissədə və hərbi hissənin əhatə etdiyi postda olmuş, əsgər və zabitlərlə görüşmüş, təmas xəttində xidmətin təşkili ilə maraqlanmış, müvafiq tapşırıqlar vermişdir.

Birləşmə və hərbi hissələrdə şəxsi heyət arasında vəzifə borcuna məsuliyyət daha da artırılmış, döyüşə hazırlıq günün tələbləri səviyyəsində qurulmuş, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı və hərbi intizam möhkəmləndirilmişdir. Əlahiddə Ümumqoşun Ordunun silah arsenalı müasir silah və texnika ilə gücləndirilmişdir.

Bütün bunların nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu 2017-ci ildə hazırlıq planına əsasən görülən işlərin nəticələrinə, döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülmüşdür.

Əldə olunan bu uğur şəxsi heyəti qürurlandırmaqla yanaşı, həm də qarşıya daha mühüm vəzifələr qoyur. Ali Baş Komandanın döyüş əmrinə hazır, yüksək döyüş imkanlarına, müasir silah və texnikalara malik olan Əlahiddə Ümumqoşun Ordu bundan sonra da Naxçıvan Muxtar Respublikasının müdafiəsini etibarlı şəkildə təşkil edəcəkdir.

**Mirqiyas RÜSTƏMOV**
**polkovnik**

## Xüsusi qayğıya ehtiyacı olan uşaqlara bayram hədiyyələri verilib



Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, təhsil naziri Məmməd Qəribov çıxış edərək bildiriblər ki, muxtar respublikamızda xüsusi qayğıya ehtiyacı olan uşaqlara həssaslıqla yanaşılır, onların hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili, cəmiyyətə inteqrasiya olunmaları diqqət mərkəzində saxlanılır. Bu qəbildən olan uşaqların ziyarət olunması, onlara hədiyyələrin verilməsi dövlətin uşaqlara diqqət və qayğısının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva sağlamlıq imkanları məhdud uşaqlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında tamaşalardan səhnəciklər göstərilib. Bayram şənliyində sağlamlıq imkanları məhdud 17 uşağa hədiyyələr verilib.

Həmin gün adıçəkilən qurumların əməkdaşları Ordubad şəhərindəki Məhəmməd Füzuli adına tam orta internat məktəbində də olub, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlarla, həmçinin aztəminatlı ailələrin uşaqları ilə görüşüblər. Görüşdə bu qəbildən olan 7 uşağa bayram hədiyyələri təqdim olunub.

Adıçəkilən təşkilatlar bu gün Naxçıvan şəhərində şəhid Qabil Orucəliyevin, Rasim Məmmədovun, Orxan Quliyevin, Şərur şəhərində şəhid Elnur Cəfərovun, Babək rayonunun Cəhri kəndində Cəfər Cəfərovun, Culfa rayonunun Gülüstan kəndində Abbas Zeynalovun ailələrinə də bayram sovqatı aparacaqlar.

**Ramiyyə ƏKBƏROVA**

***Dekabrın 29-da Babək rayon Nehrəm kənd sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Ordubad şəhər sakini İlhamə Əliyeva, Kəngərli rayon Qıvraq qəsəbə sakini Əsgər İsgəndərov, Culfa rayon Əlincə kənd sakini Şahin Quliyev tərəfindən Naxçıvan Dövlət Xalça Muzeyinə qədim tariximizi və mədəniyyətimizi əks etdirən xalça, toxuculuq məmulatı və aləti, yun darağı, kirgit, cəhrə, taxta həvə, mis qablar və digər nümunələrdən ibarət qırxa yaxın eksponat təqdim edilib.***

## Naxçıvan Dövlət Xalça Muzeyinə qırxa yaxın eksponat təqdim olunub



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi daim diqqətdə saxlanılır və bu işdə muxtar respublika sakinləri yaxından iştirak edirlər. Bu il ərzində muxtar respublikamızın muzeylərinə 1340 eksponat daxil olub. Bu eksponatlar nazirliyə və muzeylərə könüllü olaraq təqdim edilib və muzeylərdə, ümumilikdə, 10 eksponatın təqdimatı keçirilib. Bununla bərabər, AMEA Naxçıvan Bölməsinin Əlyazmalar İnstitutuna da qədim kitablar verilib.

Vurğulanıb ki, bu cür təqdimat mərasimlərinin keçirilməsi əhali arasında da geniş marağa səbəb olub. Bu maarifləndirmə işinin hər birimiz tərəfindən gələcəkdə də davam etdirilməsi çox əhəmiyyətlidir.

Nazir maddi-mədəniyyət nümunələrini muzeyə təqdim etdiklərinə görə vətəndaşlara təşəkkürünü bildirib, mədəniyyətimizin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bütün mədəniyyət işçiləri adından minnətdarlıq edib.

Sonra eksponatları muzeyə hədiyyə edənlərdən Əsgər İsgəndərov, Akif Hacıyev, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova çıxış edərək bildiriblər ki, maddi-mədəni irsimizin qorunması baxımından belə tədbirlərin keçirilməsi əhəmiyyətlidir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir. İnanırıq ki, bu işlər gələcəkdə də davamlı olaraq həyata keçiriləcəkdir.

**Əli RZAYEV**

## Uşaq musiqi məktəblərinin hesabat konsertləri keçirilib

***Ordubad şəhər və Vənənd kənd uşaq musiqi məktəblərində tədris ilinin birinci yarısına aid hesabat konserti keçirilib.***



Konsertdən əvvəl vurğulanıb ki, hazırda muxtar respublikamızda 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Son illər 25-ə qədər uşaq musiqi məktəbi üçün yeni binalar tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Uşaq musiqi, incəsənət və bədii yaradıcılıq məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə şagirdlərin, müəllimlərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi üçün bir sıra işlər həyata keçirilib. Ustad dərslərinin, metodik kursların, istedadlı şagirdlərin solo konsertlərinin təşkili, görkəmli bəstəkarların yubileylərinin qeyd edilməsi, müsabiqələrin keçirilməsi məktəblərdə tədrisin inkişafına böyük təsir göstərir.

Sonra konsertə start verilib. İlk olaraq Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin xalq çalğı alətləri orkestrinin ifasında görkəmli bəstəkarımız Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletindən “Türk qızlarının rəqsi” səsləndirilib. Fortepiano, tar və kamança ixtisaslarında təhsil alan şagirdlərin ifasında Fikrət Əmirovun, Tofiq Quliyevin, Səid Rüstəmovun və xarici ölkə bəstəkarlarının əsərləri də maraqla qarşılanıb. Konsertdə xalq mahnıları və bəstəkar mahnıları da ifa olunub.

Konsert Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin xor kollektivinin ifasında “Ay dilbər” xalq mahnısı ilə başa çatıb.

**Fatma BABAYEVA**

# İlayrıcı

Bir il də belədə gəlib keçdi… Təqvimin yarpaq tökümünə xitam veriləcək, saatın əqrəbləri dördnala çaparaq bizi yeni ilin astanasından adladacaq. Tarixin qədimliyindən köksü qabaran, keçmişindən bu gününə qürurla boylanan, mahir bir nəqqaşın Vətən eşqi əməli ilə min bir gözəllikli laciverd dona bürünən ana yurdum Naxçıvanımın ötən ildəki uğurlarına boylandıqca bu sətirlər dolaşır dilimdə:

*Naxçıvanam! Azərbaycan gözəliyəm,*
*Sözün, eşqin, düz ilqarın əzəliyəm.*
*Mən bir eləm,*
*Nurlu şəlaləyə dönən,*
*İşıqların gurşadında şöləlnən*
*Araz üstə Çənlibeləm...*
*Odum, suyum məlhəm olmuş*
*İgidlərin yarasına.*
*Od çaxarlı, sel axarlı*
*Havaların sırasına*
*Mən “Cəngi”ni gətirmişəm.*

Belə bir məqamda istər-istəməz ötənlərin nostalgiyası ilə gələcəyə ümid qarışıq qəribə hisslər bürüyür insanı. Şair demişkən:

*Keçmişi təzədən yaşayıram mən,*
*Ömrün üfüqündə gülür dan yeri.*

Ömür sarayımızdan düşən kərpiclərlə yaş adlı qalamızı bir boy da ucaltdıq demək. Yaşadıqlarımızın arxasınca boylandıqda isə qazandıqlarımızı kafi saymayıb, itirdiklərimizə daha çox heyifsilənirik. Ən böyük itkimiz isə, həmişə olduğu kimi, yenə də vaxt itkisidir. Zamanı yetərincə dəyərləndirdiyimiz, zamanı qabaqlaya bildiyimiz anlarda da, “vaxt öldürdüyümüz”



məqamlarda da vaxtdan vaxt əsirgəyə-əsirgəyə gileylənmişik vaxt qıtlığından.

Zamansa nəhəng dəyirmandaşı kimi anları, dəqiqələri üyüdüb günə, aya, ilə çevirib. Bir də baxmışıq ki, bir göz qırpımı qədər ani bildiyimiz bir ilmiş sən demə ötüb keçən. Sevinciylə, nəşəsiylə, kədəriylə ömrümüzə yazılan bir il:

*İllər, illər, illər,*
*Sizdə nəyim qaldı?*
*Ağac altı, bulaq başı dincliyim,*
*O dincliyi yiyəsinə qaytarın!*

Təkcə ötən ilin son gecəsi yox, hər zaman bilək ömrümüzdən gedən hər anın, hər dəqiqənin qədrini.

Heç kəsin və heç nəyin əbədi olmadığı bu fani dünyada yalnız xeyirxah əməllərimizlə, saf niyyətimizlə iz qoyaq:

*Vaxt var ikən*
*bircə qələm vur,*
*bir budaq peyvənd elə.*
*Demə, o necə, mən də elə.*
*Düşmənə amansız ol, dosta xoşqılıq!*
*Vaxt var ikən*
*elə yaşa, elə çalış,*
*bir gün sən olmayanda*
*hər kəsə aydın görünsün*
*yerində qalan boşluq.*

Vaxt var ikən yaşayaq, yaşadaq! Deyək, gülək, sevək, sevilək! Vaxt var ikən bilək yurd, yurddaş, el-oba qədir-qiymətini! İldə bir yol anmayaq həmrəy, həmdərd, sirdaş olduğumuzu. Vaxt var ikən bir ocağın istisinə, sevincinə, kədərinə şərik çıxaq. Qəlbimizin hərarəti ilə isidək Vətən həsrətinin göynərtisindən üşüyən eloğullarımızı.

Qarşıda ümid dolu sabah, xoş gələcək gözləyir bizi.

Bayırda, yolka ətrafında əl-ələ, qol-qola oynayan o balaca dəcəllərin bəxtəvər gülüşləri heç zaman sarsılmasın. Qoy onlar bu xalqın, bu elin şad, firavan günlərinin ləzzətini doyunca dadıb gələcəyin layiqli vətəndaşları olsunlar! Sevilə-sevilə qurulan, abadlaşdırılan, cənnətə çevrilən bu Vətəni ata mirası, göz bəbəyi kimi qorusunlar!Yeni ilin ilk günündəki kimi həyat onlara daim xoş sürprizlər, hədiyyələr ərməğan etsin.

Qarşıda ümid dolu sabah var, xoş gələcək var. Gəlin bu gələcəyi ötən ilin son gecəsindən özümüz quraq, yaradaq:

*Qoparıb tək qalan son vərəqləri,*
*Yeni təqvimləri asın həvəslə!*
*Gülsün üzünüzə açılan səhər –*
*Yeni il, yeni iş, yeni fikirlər!*
*Hamı iş başına hər səhər erkən!*
*Elə başlayaq ki, birinci gündən*
*Peşiman olmayaq sonuncu gündə.*

Qoy üzümüzə gələn il xoş müjdələr, zəfərlər ili olsun! Qoy yeni il arzuların çin olan ili olsun! Ruzi-bərəkət, sülh, əmin-amanlıq ili olsun!

***Xoş müjdəli, sevinc dolu günlərinlə, xoş gəlmisən Yeni il!***

**Mehriban SULTAN**

## Gənc alimin tədqiqatı uğurlu layihələr bölməsində yer alıb

AMEA Naxçıvan Bölməsinin əməkdaşları 2011-ci ildən etibarən Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun müsabiqələr yolu ilə həyata keçirdiyi qrant layihələrində iştirak edirlər. Əməkdaşlar Azərbaycan elminin inkişafına dəstək verən Fondun qrant müsabiqələrində elmin müxtəlif istiqamətləri üzrə 16 qrant layihəsinin qalibi olublar. Məlumat üçün qeyd edək ki, ötən il qalib olan qrant layihələri çərçivəsində 3 monoqrafiya işıq üzü görüb.

Bölmənin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədova da fondun qrant müsabiqələrində iştirak edən gənc alimlərdən biridir. Onun təqdim etdiyi “Naxçıvan Muxtar Respublikasının yeraltı sərvətlərindən yeni yüksək temperatura davamlı istilik izolyasiya materiallarının, seolitlərin alınma metodlarının işlənilməsi” adlı layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Uğurlu layihələr bölməsində yer alıb.

Həmin layihənin əsas qayəsi Naxçıvan Muxtar Respublikasının ərazisində olan mineral xammal əsasında tətbiqi mürəkkəb olmayan texnoloji metodlardan istifadə etməklə, elmi baxımdan əsaslandırılmış yeni xassəli materiallar almaqdır. Qeyd edək ki, layihədə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan təbii alümosilikat yataqlarından əldə olunmuş alümosilikatlardan yeni sistemlər təklif olunub və onlar əsasında sintetik seolitlər alınıb. Müasir dövrdə də asan alınan materiallar daha böyük əhəmiyyət kəsb edir. Bu baxımdan mineral xammal əsasında alınan və alına biləcək yeni xassəli seolitlər, istilik izolyasiya materialları perspektivli sayıla bilər. Həmin seolitlər və istilik izolyasiya materialları sənayenin müxtəlif sahələrində – neft-kimya sənayesində, kənd təsərrüfatında və digər sahələrdə istifadə oluna bilər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Cüdoçumuz Azərbaycan çempionatının qalibi olub



Bakı İdman Sarayında kişilər, qadınlar və usta cüdoçular arasında təşkil olunan Azərbaycan çempionatına yekun vurulub. Üç gün davam edən respublika çempionatında 55 klubdan 497 cüdoçu mübarizə aparıb.

Yarışın sonuncu günündə kişilər arasında tatami üzərinə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançısı Şahin Qəhrəmanov çıxıb. +100 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız həlledici qarşılaşmada “Qəbələ” idman klubunun idmançısı Uşanqi Kokaurini məğlub edib və ölkə çempionu adına layiq görülüb.

Sonda qalib idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

## Voleybol üzrə yoldaşlıq görüşü



Ordubad şəhər 3 nömrəli tam orta məktəbin idman zalında Ordubad və Culfa Rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə qızlardan ibarət “Ordubad” və “Culfa” voleybol komandaları arasında yoldaşlıq görüşü keçirilib.

31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunan görüşdən öncə çıxış edən rayon Gənclər və İdman idarələrinin rəisləri Əbülfəz Əliyev və Ümid Həsənli Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında geniş məlumat verib, idmançıları Yeni il münasibətilə təbrik ediblər.

Gərgin keçən mübarizə “Ordubad” komandasının 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Sonda hər iki komanda təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası və Naxçıvan

## Təlim-məşq toplanışı keçirilib

Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə Naxçıvanda dağ və ekstremal idman növləri üzrə keçirilən təlim-məşqlərə yekun vurulub.

Naxçıvan Dövlət Texniki Kollecində keçirilən təlim-məşq prosesindən öncə çıxış edənlər federasiyanın fəaliyyəti və qarşıda duran vəzifələr barədə danışıblar. Təlim-məşq toplanışında Hava və Ekstremal İdman Növləri Federasiyasının “İlandağ”, “Qapıcıq” idman klubları və 10 komandanın 100 nəfər üzvündən ibarət idmançıları iştirak edib. Toplanış zamanı Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının ekstremal idman növləri üzrə məşqçi-təlimçisi Babək İsgəndərov yerli məşqçilərə, idmançılara təlimlər keçib. Təlimlərdə idmançılara nəzəri olaraq təqdimatlar, idman dırmanması, eyni zamanda praktik olaraq süni divarda dağa və qayaya dırmanma, dağdan və qayadan enmə prosesləri göstərilib.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 29 yanvar 2018-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 faiz güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 609 kvadratmetr torpaq sahəsində yerləşən 568,22 kvadratmetr ümumi, 282,12 kvadratmetr əsas, 286,1 kvadratmetr köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası | Naxçıvan şəhəri, 7A məhəlləsi, bina 15 | 72 510 | – | 3 625,50 |
| 2. | 226 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 1 otaqlı, 19,5 kvadratmetr yaşayış, 23,45 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, G.Əsədov küçəsi, ev 9 | 41 700 | 35 445 | 2 085 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faizi məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 26 yanvar 2018-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 29 yanvar 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## “Naxçıvan” Universiteti
## *2017-ci il üçün aşağıdakı ixtisaslar üzrə doktorantura və dissertanturaya qəbul elan edir*

***Doktoranturaya fəlsəfə doktoru proqramı üzrə ödənişli əsaslarla***

Ümumi iqtisadiyyat – 1 yer (əyani)
Etnopedaqogika – 1 yer (əyani)

***Dissertanturaya ödənişli əsaslarla***

Sistem analiz, idarəetmə və informasiyanın işlənməsi – 1 yer
Vətən tarixi – 1 yer
Azərbaycan dili – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 2 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, dissertantlıq yolu ilə 4 ildir.

Doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- *“Naxçıvan” Universitetinin rektorunun adına ərizə;*
- *kadrların şəxsi qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *iş yerindən xasiyyətnamə;*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

Doktoranturaya sənədlər 27 dekabr 2017-ci il-15 yanvar 2018-ci il tarixlərdə qəbul edilir.

Qəbul imtahanları 16-30 yanvar 2018-ci il tarixlərdə keçiriləcəkdir.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1060